

Müzakirə sənədi

Fevral, 2012

CONCILIATION RESOURCES
working together for peace

# **Təcridin hüdudları:** Dağlıq Qarabağ sülh prosesində status məsələsinə yanaşmaların yenidən nəzərdən keçirilməsi

**Ərazi, münaqişə tərəfləri və bu münaqişəni həll etmək üçün mandat alanların statusu Dağlıq Qarabağ münaqişəsində ən əsas məsələlərdəndir. Dağlıq Qarabağa hansı statusun – müstəqillik, muxtariyyət, özünüidarə və ya digər statusun verilməsi məsələsi mübahisənin özəyində durur. Qarabağ sülh prosesində status məsələsi həmçinin mübahisələr doğurur; Qarabağda bu gün yaşayan əhali həmin sülh prosesində formal cəhətdən təmsil olunmamışdır. Dağlıq Qarabağdan didərgin düşmüş insanlar münaqişədən ən çox əziyyət çəkmələri ilə bərabər, cəmiyyətin ən zəif təbəqəsinə çevrilmişlər. Onlar həmçinin sülh prosesindən kənarda qalmışlar.**

Ermənistan-Azərbaycan danışıqlarındakı ən ziddiyyətli məsələ olan status məsələsi bütün digər problemləri kölgədə qoyur. Buna görə də status məsələsi ilə bağlı müdaxilə edilməlidir ki, həm alternativ və daha çox tənzimlənə bilən yanaşmalar tətbiq edilsin, həm də digər məsələlər ətrafında gedən dialoqa onun mənfi təsiri azaldılsın. Nə qədər ki, status bütün tərəflərin qatıldığı ədalətli sülh prosesi ilə legitimləşən arzuların ifadəsi kimi deyil, əksinə, bir qrupun digərini təcrid etmək üçün gördüyü birtərəfli tədbir kimi başa düşüləcək, o, sülh sazişinə əngəl törətməyə davam edəcək.

*Köçkün erməni ailələrindən olan uşaqların plastilindən düzəltdiyi fiqurlar. Nareqatsi İncəsənət İnstitutu, Şuşa (Şuşi).*



*Dağlıq Qarabağ de fakto Milli Məclisinin binası.*

Bir sıra ixtilaflı məsələlərin mövcud olmasını nəzərə alaraq, bu icmalda Ermənistanla Azərbaycan arasında status məsələsi ilə bağlı dialoqun davam etdirilməsi üçün mümkün təmas nöqtələri müəyyən edilmişdir. Bu təmas nöqtələri indiki formada bir və ya bütün tərəflər üçün məqbul olmaya bilər, lakin onların təklif etdiyi platformalar əsasında tərəflər ya "hansı məsələlərin fikir ayrılığına səbəb olması haqqında razılığa gələ bilər", ya da, müstəsna hal olaraq, danışıqların gələcək istiqamətləri üzrə mövqelərini yaxınlaşdıra bilərlər. Bu icmalda həmçinin gələcəkdə status məsələsinə təsir edə bilən daha legitim nəticələrin əldə edilməsi üçün lazım olan əsas siyasi proseslərə müdaxilə etmək üçün beynəlxalq ictimaiyyətə tövsiyələr edilmişdir.

## 1. Dağlıq Qarabağ münaqişəsində status məsələsi - əsas ixtilaflar

Status məsələsində Ermənistan və Azərbaycan arasında bir sıra əsaslı fikir ayrılıqları mövcuddur:

### A. Statusun mənası

Ermənilər status məsələsinə təyin-müqəddərat prinsipi prizmasından baxırlar və müstəqillik kimi görürlər. Bu baxımdan Dağlıq Qarabağ erməniləri 1991-ci ilin dekabrında keçirilmiş referendumda Azərbaycandan ayrılmağa səs verməklə öz statuslarını təyin etmişlər. Ermənilərin tutduğu mövqeyə əsasən, bu səsvermə nəticəsində yeni gerçəklik meydana gəldi: yeni müstəqil dövlət – Dağlıq Qarabağ Respublikası formalaşdı və bu dövlət gec-tez beynəlxalq səviyyədə tanınacaq.

Azərbaycanlılar status məsələsinə ərazi bütövlüyü prinsipi və Azərbaycan SSR-nin son illərindəki müstəqil sərhədlərinin pozulmaması çərçivəsində baxırlar. Bu baxımdan Dağlıq Qarabağın statusu Azərbaycan dövlətinin sərhədlərində müəyyən edilməlidir. Prezident İlham Əliyevin "ən ali mümkün muxtariyyət"dən söz açmasına baxmayaraq, bu konsepsiyaya aydınlıq gətirilməmişdir. Bununla belə güman etmək olar ki, bu məfhum özünüidarə institutlarını, geniş mədəni və dil hüquqlarını və suverenlik rəmzlərindən (bayraq və s.) istifadə etmək hüququnu nəzərdə tutur.

> *"Ermənilər güman edir ki, azərbaycanlılar status deyərkən "muxtariyyəti" nəzərdə tuturlar, azərbaycanlılarsa elə düşünürlər ki, ermənilər statusu "müstəqillik" kimi başa düşürlər. Bu baxımdan biz bir növ psixoloji tələyə düşmüşük."*

Bu iki fərqli yanaşmadan çıxış edərək ermənilər və azərbaycanlılar status məsələsinin müzakirəsində bir-birlərini aldatmağa çalışırlar. QƏQ iştirakçılarından biri bunu belə xarakterizə edir: "Ermənilər güman edir ki, azərbaycanlılar status deyərkən "muxtariyyəti" nəzərdə tuturlar, azərbaycanlılarsa elə düşünürlər ki, ermənilər statusu "müstəqillik" kimi başa düşürlər. Bu baxımdan biz bir növ psixoloji tələyə düşmüşük..."

### B. Statusun zamanlanması

Bu fərqli mövqelərə əsaslanaraq erməni və azərbaycanlılar həmçinin statusun vaxtı haqqında razılığa gələ bilmirlər. Ermənistan, xüsusən də Qarabağ erməniləri, status məsələsini artıq həll olunmuş məsələ, tarixdə qalmış məqam kimi qəbul edir. Dağlıq Qarabağın statusu haqqında gələcəkdə qəbul ediləcək hər hansı bir qərar zamanı geriyə qaytara bilməz və yalnız gerçəkliyin, yəni Dağlıq Qarabağda ermənilərin çoxluq təşkil etdiyi müstəqil dövlətin beynəlxalq miqyasda tanınmasına yönəlməlidir. Buna görə də ermənilər beynəlxalq ratifikasiya məsələsində vaxt amilinə xüsusi önəm verirlər: onların fikrincə, bu, ən tez zamanda baş tutmalıdır.

Azərbaycanda status məsələsini hələ həll edilməmiş məsələ kimi qəbul edirlər. Rəsmi Bakı 1991-ci ildə Dağlıq Qarabağın müstəqilliyinə dair keçirilmiş

referendumu rədd edir və bunu elə əsaslandırır ki, onun keçirilməsinə öz razılığını verməyib və Qarabağ azərbaycanlıları (1989-cu ildə onlar Dağlıq Qarabağ əhalisinin 22,4 faizini təşkil edirdilər) həmçinin bu səsverməni boykot etmişlər. Bakıda Dağlıq Qarabağın hazırkı vəziyyəti digər dövlətin, yəni Ermənistanın işğalının nəticəsi kimi qiymətləndirilir. Buna görə də Azərbaycanda Dağlıq Qarabağın statusu hələ də danışıqlar mövzusudur. Bu yanaşmaya görə status məsələsinin həll edilməsi və ya səsə qoyulmasının vaxtı qeyri-müəyyəndir; güman edilir ki, vaxtın uzadılması barışığa və Azərbaycanın iqtisadi cəhətdən daha güclü dövlətə çevrilməsinə şərait yaradacaq.

### C. Status məsələsində ardıcıllıq

Minsk Qrupunun vasitəciliyi ilə aparılan danışıqlarda irəli sürülmüş və "Madrid Prinsipləri" adı ilə tanınan hazırkı sülh təklifi bir sıra ayrı-ayrı ideyalardan ibarətdir. Bu ideyaların ardıcıllığı mübahisələrə səbəb olmuşdur. Statusun müəyyən edilməsinin bu ardıcıllıqda hansı yerdə duracağı haqqında Ermənistan və Azərbaycan arasında fikir ayrılığı mövcuddur. Ermənilərin fikrincə, ilk növbədə status sonacan müəyyən edilməlidir, çünki bu, təhlükəsizliyə tutarlı zəmanət verir. Bu məsələdə razılığa gəldikdən sonra digər məsələləri də həll etmək olar.

Azərbaycanın mövqeyi ondan ibarətdir ki, əvvəl digər məsələlər, xüsusən də köçkünlərin geri qayıtması məsələsi həll edilməlidir. Bu halda isə ermənilər qorxurlar ki, münaqişənin əvvəlində Dağlıq Qarabağ əhalisinin 22,4 faizini təşkil etmiş azərbaycanlıların hazırkı sayı şişirdiləcək və iki icma arasında say nisbəti pozulacaq.

### D. Statusun sahibi

Sözü gedən statusu əldə etmək hüququnun kimə aid olmasına dair də tərəflər arasında razılıq yoxdur. Ermənilərin fikrincə bu hüquq Dağlıq Qarabağın hazırkı əhalisinə məxsusdur. Dağlıq Qarabağın bu gün qüvvədə olan qanunvericiliyində qeyri-erməni sakinlər üçün bir sıra hüquqlar nəzərdə tutulsa da, Dağlıq Qarabağ erməni dövləti kimi müəyyən edilmişdir: burada digər milli azlıqlar yaşaya bilər, lakin ermənilərdən başqa dövlətqurucu (titul) millət ola bilməz.

Azərbaycanlıların çıxış etdiyi mövqeyə əsasən status Qarabağı öz vətəni hesab edən hər iki əhalinin – Qarabağ erməniləri və azərbaycanlılarının – daxil olduğu quruma şamil edilməlidir. "İcma yanaşması" adlanan bu mövqeyi Dağlıq Qarabağın özündə rədd edirlər. Bu yanışmanın başlıca şərti ondan ibarətdir ki, yalnız "birgə cəmiyyət" Dağlıq Qarabağın statusunu həll edə bilər.

### E. Status barəsində danışıqlar aparmaq hüququ

Status barəsində danışıqları kiminlə aparmaq məsələsində erməni və azərbaycanlıların mövqeləri üst-üstə düşmür. Qarabağ erməniləri özlərini Azərbaycanla öz statuslarının müəyyən edilməsi ilə bağlı danışıqlar aparan tərəf kimi görür və sülh prosesində rəsmən iştirak etməmək onların heysiyyətinə toxunur.

Münaqişəni Ermənistanla Azərbaycan arasında dövlətlərarası münaqişə kimi qəbul edən və Qarabağın azərbaycanlı əhaləsinin zor yolu ilə çıxarıldığını vurğulayan rəsmi Bakı illər boyunca davam edən işğal şəraitində de fakto Dağlıq Qarabağ hökumətini legitim danışıqlar iştirakçısı kimi rədd etmişdir. Bakının rəsmi mövqeyinə görə Qarabağ ermənilərinin danışıqlarda müvafiq tərəfdaşı Qarabağın azərbaycanlı əhalisi olmalıdır, bununla da rəsmi Bakı təsdiqləyir ki, Dağlıq Qarabağın taleyini iki millət təyin etməlidir. Buna görə də Azərbaycan tərəfi status haqqında danışıqları Dağlıq Qarabağın de fakto hakimiyyətinin üstündən keçib Yerevanla aparır (buna işarə olaraq ermənilər bəzən qeyd edirlər ki, məhz buna görə münaqişə Dağlıq Qarabağ "ətrafında" münaqişə adlanır). Bu sxem əlavə gərginliyə, yalnış məlumatların və səhv təsəvvürlərin çoxalmasına səbəb olmaqla bərabər, sülh prosesinin iştirakçıları üçün manevr imkanlarını əhəmiyyətli dərəcədə azaldır.

## 2. Üst-üstə düşən mövqelər

Bu fikir ayrılıqlarına rəğmən erməni və Azərbaycan mövqeləri arasında aydın sezilməsə də, üst-üstə düşən müəyyən məqamlar mövcuddur.

### A. Statusun dar və geniş anlamları

Hər iki tərəfin mövqeyində statusu qısa vaxt kəsiyində, demək olar ki, bir hadisənin nəticəsində həll ediləcək məsələ kimi təqdim etmək üçün güclü tendensiya var. Bu baxımdan dar çərçivəyə salınan status məsələsi bir qrupun imtiyazı kimi təqdim edilir; həmin qrup statusun "həll" ediləcəyi "gün" "qalib gələcək". Bu məntiqə uyğun olaraq, digər qrup və ya əhali uduzmalıdır. Bu yanaşmanı statusun "dar" anlamı adlandırmaq olar.

Digər tərəfdən statusun "geniş" anlamı legitim idarəçilik, institusional imkanlar, bütün qruplara məxsus çoxsaylı hüquqların yerinə yetirilməsi kimi daha dərin və davamlı proseslərə diqqət yönəldə bilər. Bu baxımdan statusu siyasi quruma legitim görünməyə və qəbul edilməyə imkan verən münasibətlər toplusu kimi təsvir etmək olar. Bu, bir hadisə deyil, hüquq və öhdəliklərlə müəyyən edilən uzunmüddətli və daim artan bir prosesdir.

Qarabağ münaqişəsi uzun müddət ərzində idarəçilik məsələlərini ya öz daxilindəki narazılıqları həll etməyə müvafiq olmayan, ya da "qarşı tərəfin problemi" kimi təsvir etmək üçün münasib platforma rolunu oynayırdı. Bununla belə həm ermənilər, həm azərbaycanlılar status məsələsinin həllində idarəçilik boşluğunu tənqid etmək üçün bənzər mövqelərdən çıxış edirlər.



*Şuşadan didərgin düşmüş və hazırda Bakıda yaşayan azərbaycanlı ailəsinin üzvləri (Mənbə: bbcrussian.com)*

Buna sübut olaraq, bu gün müxtəlif aktorların statusunu legitimləşdirmək üçün 1990-cı illərin əvvəllərində keçirilmiş bir sıra referendum və səsvermələrə dair KİV-də gətirilən dəlillərə nəzər yetirmək kifayət edər. Qarşı tərəflər bir-birinə oxşar dəlillər gətirərək bu səsvermələri qəbul etmir və bunu bütün qrupların əhatə edilməməsi, mandatın olmaması və dinc yolla aparımaması ilə əsaslandırır. Münaqişə bölgəsində bu nəticələrin legitimsizliyi QƏQ debatlarında təkrar-təkrar qarşı tərəfin kənarlaşdırılması ilə izah edilirdi.

### B. Köçkünlərin hüquqları təmin edilə bilər və edilməlidir.

Statusun müəyyən edilməsi və köçkünlərin geri qayıtmasında ardıcıllığın təyin edilməsi kəskin fikir ayrılığına səbəb olmuşdur. Lakin köçkün axınının daha çox bir istiqamətli olduğu və ya demoqrafik çoxluğun nisbətən kiçik olduğu və ya heç olmadığı münaqişələrdən fərqli olaraq, Dağlıq Qarabağ münaqişəsində köçkünlərin hüquqlarının ümumi problem kimi tanınması üçün daha çox imkan var.

Dağlıq Qarabağın statusu haqqında müzakirələrin spesifik kontekstində bu məsələ aşağıdakı sual formasını alır: qarabağlı azərbaycanlılar Dağlıq Qarabağa qayıtmaq arzusunda olsalar, onlara bu imkan veriləcəkmi? Bu sual ayrıca bir məsələ kimi təqdim edilərsə, çox güman ki, mübahisələrə səbəb olacaq. Əgər bu sual müxtəlif köçkün kateqoriyalarına aid çoxsaylı məsələlərin bir elementi kimi müzakirəyə çıxarılarsa, onun üzərində razılığa gəlmək daha asan olar.

*“Hər iki tərəfin mövqeyində statusu qısa vaxt kəsiyində, demək olar ki, bir hadisənin nəticəsində həll ediləcək məsələ kimi təqdim etmək üçün güclü tendensiya var.”*

QƏQ polemikalarında münaqişə tərəfləri razılaşırdılar ki, əgər müəyyən şərtlər yerinə yetirilərsə qarabağlı azərbaycanlıların Dağlıq Qarabağa qayıtması həm mümkün, həm də vacibdir. Birincisi, bu, çoxşaxəli və qarşılıqlı proqramın tərkib hissəsi kimi həyata keçirilməlidir ki, münaqişə nəticəsində didərgin düşmüş insanların – azərbaycanlılar, ermənilər və digərlərinin – hüquqları təmin edilsin. İkincisi, bu, o zaman mümkün olar ki, qayıdış prosesi həm qayıdanlar, həm də onları qarşılayan tərəf üçün könüllü və təhlükəsiz olsun.

### C. Danışıq tərzinin dəyişdirilməsi

Müharibə qoxusu gələn ritorika və münaqişəni silah yolu ilə həll etmək hədə-qorxuları status məsələsini Dağlıq Qarabağ və onun hazırkı əhalisi üçün həyati məsələyə çevirir və onların mövcudluğunu sual altına qoyur. Status məsələsini sadələşdirib ağ və qara rənglərə boyamaq, ona müharibə çaları əlavə etmək o deməkdir ki, institutlar və proses haqqında müzakirələr öz əhəmiyyətini itirir. Lakin status-kvonun qəbul edilməsi əslində elə hərbi gücdən istifadənin nəticələrinin qəbul edilməsi deməkdir. Buna görə də Qarabağ münaqişəsinin həll edilməsində keçmişdə və ya gələcəkdə hərbi gücdən istifadəyə bəraət qazandıran çıxışların ziyanı barədə tərəflərin fikirləri üst-üstə düşür. Bir iştirakçının dediyi kimi, “hətta ən yaxşı sülh planı bugünkü ritorikalar mühitində iflasa məhkumdur”.

Münaqişəni hərbi yolla həll etmək hədə-qorxularından savayı statusla bağlı bugünkü çıxışlarda sovet interpretasiyası ilə yüklənmiş terminlərdən istifadə edilir. Məsələn, “muxtariyyət” termini bir tərəfdən bu muxtariyyətin şamil edilməsi nəzərdə tutulan xalqlar tərəfindən dərhal rədd edilir, digər tərəfdən dialoq qurmaq üçün heç də səmərəli başlanğıc nöqtəsi deyil. Müasir debatlarda qüsurlu idarəçilik tarixi ilə assosiasiya edilən terminlərdən imtina edən yeni dil formalaşdırılmalıdır.

### D. Ünsiyyət çatışmazlığı strategiyası

Qarabağ münaqişəsini bir neçə səviyyədə xarakterizə etmək olar: xalqlararası, icmalararası, mərkəz-periferiya və beynəlxalq. Hazırkı sülh prosesi bu səviyyələri Ermənistan və Azərbaycan prezidentləri arasında gedən bir dialoqda ümumiləşdirir. Bu format münaqişədən əziyyət çəkmiş qruplar və icmalara bir-biri ilə ünsiyyət qurmağa imkan vermir. Beləliklə biz “ünsiyyət çatışmazlığının” şahidi oluruq; sülhün dayanıqlı olması üçün bu ünsiyyət kanalları bir gün açılmalıdır.

Müəyyən səviyyədə bütün tərəflər özlərinə qarşı irəli sürülən iddialara legitimlik qazandırmamaq üçün ünsiyyət çatışmazlığı strategiyasında iştirak edirlər; eyni zamanda onlar bu strategiyanı onların qanuni hesab etdiyi iddialarını rədd etməkdə suçlayıb pisləyirlər. Status müzakirələrinə aid iki misal göstərmək olar: Dağlıq Qarabağın de fakto hakimiyyəti ilə rəsmi Bakı, və qarabağlı ermənilərlə qarabağlı azərbaycanlılar arasında ünsiyyətin

olmaması. Statusun legitim həlli ilə nəticələnən səmərəli dialoq prosesini bu iştirakçılar arasında geniş, uzunmüddətli dialoqsuz təsəvvür etmək çətindir. Ola bilər ki, ermənilər və azərbaycanlılar bu çatışmayan ünsiyyətin necə, nə vaxt, harada və kim tərəfindən açılacağı haqqında fərqli fikirdədirlər. Lakin burada da üst-üstə düşən mövqelər var: onlar hər iki tərəfdən dərk edirlər ki, bu ünsiyyət olmasa dialoq natamam qalacaq, tam legitim sayılmayacaq və bölgədəki reallıqlardan uzaq olacaq.

## 3. Strategiyaya aid sahələr

### A. Standartlar və status

Ermənilərlə azərbaycanlılar arasında standartlar və status barəsində fikir ayrılığı onların müzakirələrə başlamazdan əvvəl tutduğu mövqeləri əks etdirir. Ermənilərin fikrincə, status məsələsi artıq həll edilib və yalnız onun tanınmağı qalıb. Onlar həmçinin iddia edirlər ki, Dağlıq Qarabağ işlək hökumət institutlarını qurmaqla güclü praktiki arqument irəli sürmüşdür və bu institutlar bir sıra cəhətlərinə görə legitim sayıla bilər - ən azı Dağlıq Qarabağ əhalisinin gözündə bu belədir. Mötədil erməni mövqeyinə əsasən, bu mübahisənin məğzi ondan ibarətdir ki, "standartların tanınmadán öncə" həll edilməsi tələb edilir, baxmayaraq ki, praktikada bu mövqe asanlıqla "tanınma standartlardan əvvəl gəlməlidir" prinsipinə dəyişdirilə bilər. Ermənilərin gətirdiyi dəlillər həmçinin təkcə Dağlıq Qarabağda standartlara müstəsna diqqətin yönəldilməsinə qarşı çıxır. Onlar Azərbaycanın özündə (və qismən Ermənistanda) standartların müzakirəyə qoyulmasını nəzərdə tutan müfəssəl yanaşmanın tərəfdarıdırlar. Qısaca, onlar bildirirlər ki, "standartlar simmetrik olmalıdır."

*'Hətta ən yaxşı sülh planı bugünkü ritorikalar mühitində iflasa məhkumdur.'*

Azərbaycanın mövqeyinə əsasən status həll edilməmiş məsələdir və yalnız gələcəkdə həll ediləcək (dəqiq vaxt bəlli deyil), buna görə də "standartlar statusdan əvvəl həll edilməlidir." Lakin praktikada Dağlıq Qarabağda standartlarla bağlı Azərbaycanın əksər konsepsiyaları Dağlıq Qarabağa qanuniləşmiş müstəqilliyin verilməsinin qarşısını almaq zərurətinə dirənir. Buna görə də Azərbaycanın mövqeləri asanlıqla əks-mövqeyə - statusu müstəqillikdən daha zəif sayan "status strandartlardan əvvəl" mövqeyinə çevrilə bilər.

"Standartlar tanınmadán əvvəl" və "standartlar statusdan əvvəl" mövqeləri arasında standartların vacibliyi ilə bağlı tərəflərin ümumi razılığa gəlməsi mümkündür. Bir tərəfdən Qarabağ erməniləri tanınmağa layiq olan standartları nümayiş etdirməyə can atırlar. Digər tərəfdən, Azərbaycanın muxtariyyət təklifi və azərbaycanlıların Dağlıq Qarabağa qayıdışının praktik aspektlərinin bu gün Dağlıq Qarabağda mövcud olan institutlar tərəfindən müəyyən dərəcədə qəbul edilməsi üçün zəmin yaradılmalıdır ki, bu məsələlərin həyata keçirilməsi heç olmasa nəzəri cəhətdən mümkün olsun. Dövlət idarəçiliyində, o cümlədən qanunun aliliyi, nümayəndəlik institutları, söz azadlığı, əmlak hüququ və sərbəst bazar iqtisadiyyatının bərqərar olunması sahələrində irəliləyiş Dağlıq Qarabağ cəmiyyətinin günlərin bir günü qayıdan əhalini qəbul etmək istəyinə və imkanına birbaşa təsiri var. Buna görə də münaqişə tərəflərinin seçdiyi endşpildən asılı olmayaraq, Dağlıq Qarabağda standartlar böyük əhəmiyyət kəsb edir.

### B. Statusun xarici meyarları

Dağlıq Qarabağın statusunun mümkün xarici meyarlarına dair ermənilərin mövqeyi beynəlxalq toplumun de fakto DQR-in mövcud hakimiyyəti ilə münasibət qurmaq yollarının araşdırılmasına yönəlmişdir. Bu mövqeyə əsasən Dağlıq Qarabağdakı tanınmamış institutların olduğu kimi saxlanılmasına üstünlük verirlir. Azərbaycanın tutduğu mövqeyin əsasında duran fərziyyə ondan ibarətdir ki, beynəlxalq cəmiyyətin Dağlıq Qarabağ hakimiyyəti ilə əlaqələrinin qurulmasına Azərbaycan müəyyən dərəcədə təsir göstərə bilər. Həmçinin elə güman edilir ki, xarici dünya ilə əlaqələr Dağlıq Qarabağdan olan azərbaycanlıların daxil olduğu "birgə cəmiyyətin" formalaşması ilə bağlı ola bilər.

Buna görə fərz edilən müvəqqəti statusun Dağlıq Qarabağa bugünkü vəziyyətlə müqayisədə az-çox müstəqil qərarvermə səlahiyyətinin verib-verməyəcəyinə dair tərəflərin aydın təsəvvürü yoxdur. "Status yoxsa qayıdış?" dillemasının müzakirəsində QƏQ iştirakçıları xariclə əlaqələrdən yararlanan Qarabağ hakimiyyət institutlarının mahiyyətinə dair fərqli fikirlər ortaya qoydular: "birgə cəmiyyət" beynəlxalq arenaya çıxış üçün bir şərt olaraq formalaşdırılmalıdır, yoxsa beynəlxalq arenaya çıxış "birgə cəmiyyətin" formalaşmasına yardım edən amil kimi qəbul edilməlidir? İstənilən sülhməramlı əməliyyatın zərurəti, növü və tərkibi həmçinin böyük fikir ayırılığı doğuran mövzudur.

Lakin bu çıxış mövqelərini kənara qoyanda görərik ki, etibarlı və təhlükəsiz birgə cəmiyyətin bünövrəsini qoymaq üçün xarici dövlətlər və qurumların prosesə qatılmasının zəruri hesab edilməsi mövzusunda tərəflər arasında razılıq əldə etməyə daha çox potensial var. Tərəflərin məqsədləri fərqli olsa da, Dağlıq Qarabağ cəmiyyəti və hakimiyyətinin xarici dövlətlərlə əlaqələrinin zəruri olması haqqında ümumi zəmin var.

Təhlükəsizlik məsələsinə gəldikdə xarici yardımın potensialı təkcə sülhməramlı qoşunların göndərilməsi ilə məhdudlaşmır. QƏQ iştirakçıları razılaşdılar ki, insan hüquqları, qanunun aliliyi və azlıqların hüquqlarının qorunması üçün həmçinin

yardıma ehtiyac var. Öncə Dağlıq Qarabağdan olan iştirakçılar bunu öz suverenliklərinə müdaxilə kimi qiymətləndirərək bu fikri rədd etdilər və qeyd etdilər ki, hazırkı qurumlar bu vəzifələri yerinə yetirmək iqtidarındadır. Lakin zəif və inamsız icmanın ehtiyaclarını həll etmək iqtidarında olmayan hazırkı qurumların fəaliyyətinin müzakirəsindən sonra onlar razılaşdılar ki, müəyyən dəyişikliklər edilməlidir. İştirakçıların hamısı həmçinin razılaşdı ki, Dağlıq Qarabağa insanların gediş-gəlişi və ticarət yollarının açılması üçün beynəlxalq səviyyədə nizamlanmış mexanizmlərə ehtiyac var. Onlar müəyyən dərəcədə razılığa gəldilər ki, Dağlıq Qarabağda bugünkü de fakto qurumların düzgünlüyünün saxlanılması və inkişaf etdirilməsi gələcəkdə onlara inamın artması ilə nəticələnə bilər.

> *"Standartlar tanınmadán əvvəl" və "standartlar statusdan əvvəl" mövqeləri arasında standartların vacibliyi ilə bağlı tərəflərin ümumi razılığa gəlməsi mümkündür."*

### C. Neytral statuslu və tanımadan müdaxilə

De fakto qurumların təcrid edilməsinin səmərəli olmaması haqqında münaqişə iştirakçılarının fikirləri qismən üst-üstə düşə bilərlər. Təcridetmə strategiyaları Cənubi Qafqazda de fakto dövlətlərin reinteqrasiyası istiqamətində heç bir fayda verməmişdir; bu strategiyalar tanınmamış dövlətlərin kənar tərəflərlə inteqrasiyasını gücləndirmiş və oradakı cəmiyyətləri daha sərt mövqe tutmağa sövq etmişdir. Daha geniş götürsək, təcrid münaqişənin hər iki tərəfində yanlış təsəvvürlər yaradır, münaqişənin uzanmasına səbəb olan düşmən stereotiplərini möhkəmləndirir, və beynəlxalq iştirakçıların səriştəsiz və qeyri-effektiv siyasətinə öz töfhəsini verir.

Tərəflərin məqsədləri fərqli olsa da, məhdud müdaxilə formalarının yarada biləcəyi imkanlara dair ümumi zəmin mövcuddur. Hazırda rəsmi səviyyədə fəaliyyət göstərən vasitəçilərdən heç biri Dağlıq Qarabağ münaqişəsindən əziyyət çəkmiş cəmiyyətlərin tam inamını qazanmamışdır. Bununla belə statusun xarici meyarlarına dair müzakirə göstərdi ki, belə bir vasitəçiyə ehtiyac var. Effektiv müdaxilə Avropa Birliyi (AB) və digər beynəlxalq iştirakçılar üçün inamın bərqərar edilməsi sahəsində imkanlar yarada bilər; bu inam istənilən sülh sazişinin icra edilməsi üçün zəruri olacaqdır. Təəssüf ki, Avropa qurumlarının indiyədək Dağlıq Qarabağla minimal əlaqələri olmuşdur və təmas xəttinin müşahidəsi üçün lazım olan əlaqələrlə məhdudlaşmışdır.

Dağlıq Qarabağın hakimiyyət qurumlarına qarşı beynəlxalq cəmiyyətin etinasızlığı və ya saymazlığından elə çıxır ki, Dağlıq Qarabağdakı standartların əhəmiyyəti yoxdur. QƏQ iştirakçıları neytral statuslu müdaxilənin müvafiq, lakin fərqli konsepsiyalarını, habelə AB-nin hazırladığı "tanımadan müdaxilə" siyasətini müzakirə etmişlər. İştirakçılar elə razılığa gəldilər ki, Avropa Parlamentinin 7 aprel 2011-ci il tarixli qətnaməsinin 48-ci bəndində ifadə edildiyi kimi, tanımadan müdaxilə mövzusu təcridin ziyanlı təsirini aradan qaldırmaq üçün bir sıra müsbət imkanlar yaradır.

Eyni zamanda, tanımadan müdaxilənin özü "yarı boş, yarı dolu" konsepsiya kimi qəbul edilməlidir. Bu, o deməkdir ki, Dağlıq Qarabağın de fakto hakimiyyəti müdaxilə ilə bərabər tanınmamanı da qəbul etməlidir və anlamalıdır ki, AB onların iddiaları ilə bərabər Azərbaycanın narahatlıqlarını da nəzərə almalıdır. Buna bənzər olaraq, tanınmama ilə bərabər Azərbaycan müdaxiləyə də öz razılığını verməlidir və qəbul etməlidir ki, Dağlıq Qarabağla xaric arasında keçid dövründə legitim münasibətlər qurulmalıdır. Bu münasibətlər qayıdan əhalini Dağlıq Qarabağ cəmiyyəti tərəfindən qəbul etmək imkanından asılı olmamalı və bu imkanları gücləndirməlidir.

Bütün tərəflər üçün müdaxilədən gələn potensial sülh dividentlərini dəstəkləməkdən ötrü AB prinsiplər əsasında yanaşmaya üstünlük verməlidir. Qarabağdan olan azərbaycanlıların ehtiyaclarını qarşılamaq üçün tanımadan müdaxilə həyata keçirilməlidir. Bu ehtiyac həm azərbaycanlı iştirakçılar tərəfindən səsləndirilmiş, həm də erməni iştirakçıları, o cümlədən Dağlıq Qarabağdan olan iştirakçılar tərəfindən qəbul edilmişdir.

Tanımadan müdaxilə AB-yə imkan verər ki, Ermənistan, Azərbaycan və Dağlıq Qarabağ cəmiyyətlərində vətəndaş cəmiyyətinin inkişafı və siyasi mədəniyyət sahələrinə ehtiyatla inteqrasiyaedici təsir göstərsin. Standartların bu cür üst-üstə düşməsi münaqişənin əvvəlcədən müəyyən edilmiş nəticəsi ilə əlaqələndirilməməlidir və münaqişə tərəflərinin öz cəmiyyətləri daxilində və cəmiyyətlərarası dialoq imkanlarına vacib töhfə kimi qiymətləndirilməlidir.

### D. Keçid statusu

Yuxarıda artıq qeyd edilmiş fikir ayrılıqlarının əsas məqamlarını nəzərə alaraq, qeyd etmək lazımdır ki, keçid statusunun mahiyyəti və miqyası Madrid prinsiplərinin əhatə etdiyi ən mübahisəli məsələlərdən biridir.

Danışıqların aydın nəticələrinin olmaması şəraitində keçid statusunun konsepsiyası aydın müəyyən edilməmişdir və proses əvəzinə asanlıqla hadisə kimi qəbul edilməyə meyllidir. Tərəflər bunu fərqli vəziyyətə keçid üçün bir mexanizm kimi deyil, status-kvonun ya "təsdiqi", ya da "inkarı" kimi anlamağa meyllidirlər. Onun mahiyyəti, zaman çərçivəsi və son statusla olan əlaqəsinin qeyri-müəyyən qalması keçid statusunu mübahisəli edir. Keçid statusu xüsusən Dağlıq Qarabağın



*Şuşada baxımsız qalmış binalar və məscid.*

özündə tənqid atəşinə tutulmuşdur, çünki statusu həll ediləcək insanların üzərindən keçilib həll edilir. Azərbaycanda da bir çoxları qorxur ki, keçid statusu Dağlıq Qarabağın ayrılmasını qanunilәşdirən "institusional fokus" ola bilər.

Azərbaycanda mötədil mövqelər keçid statusunu münasibətlərin normallaşdırılması və inkluziv və nümayəndəli qurumlar şəklində yanaşı yaşama formalarının bərqərar edilməsinə imkan yaradan uzunmüddətli mexanizm kimi qəbul edir. Bu məntiqə əsasən, münasibətlər normallaşdıqca və icmaların birgə yaşaması təmin edildikcə, ən çətin məsələ olan Dağlıq Qarabağın son statusu məsələsini həll etmək daha asan ola bilər. Azərbaycanın konstitusiyasındakı qadağalara istinad edərək Azərbaycan tərəfi vaxt təyin etməyə və yaxın gələcəkdə müstəqilliklə bağlı məcburi yerli və ümumi səsvermənin mümkünlüyünü qəbul etməyə həvəs göstərmir.

*"Dağlıq Qarabağın hakimiyyət qurumlarına qarşı beynəlxalq cəmiyyətin etinasızlığı və ya saymazlığından elə çıxır ki, Dağlıq Qarabağdakı standartların əhəmiyyəti yoxdur."*

Ermənilər keçid statusuna şübhə ilə yanaşırlar və güman edirlər ki, bu, yalnız vaxt uzatmaq taktikasıdır. Onlar keçid statusu konsepsiyasının təfərrüatlarını təhlil etmədən onun vaxt çərçivələri və son nəticələri haqqında danışmağa üstünlük verirlər. Ümumilikdə ermənilər müəyyən tarixə təyin edilmiş səsvermə perspektivi olmadan keçid statusu konsepsiyasını müzakirə etməyə həvəs göstərmirlər. Onların fikrincə, belə bir səsvermənin vaxtının əvvəlcədən təyin edilməsi demoqrafik üstünlüyə əsaslanaraq arzuedilən nəticələrə zəmanət verə bilər.

Qarabağ erməniləri keçid statusuna qarşıdırlar, çünki, bir təhlilçinin dili ilə desək, "keçid statusu bizdən güzəştlər tələb edir, əvəzinə isə yalnız vədlər verir." De yure və ya de fakto müstəqilliyin bugünkü mütləqiyyətçi anlamı ilə müqayisədə keçid statusu nisbətən zəif suveren qərarvermə qüvvəsini əks etdirən konsepsiyanı nəzərdə tutur.

Bu səbəbdən keçid statusu ayırıcı konsepsiya kimi qalmaqdadır; bu konsepsiya nə dövlət qurumları tərəfindən dəqiqliklə işlənir, nə də ictimaiyyət tərəfindən bəyənilir. İrəliləmək heç də asan deyil. Bununla belə aydındır ki, keçid statusunun qarşısında duran əsas maneə bu konsepsiyanı əvvəlcədən müəyyən olunmuş nəticələrə bağlamaqdan ibarətdir. Keçid elementinin münaqişənin həlli prosesindəki rolu keçid statusunun son statusdan ayırılmasına kömək etməkdən ibarət ola bilər. Bu yolla keçid statusu son status üçün hazır həllər və ya plan kimi deyil, daha çox "danışıqlar platforması" kimi qəbul edilə bilər.

Bu məntiqə uyğun olaraq, keçid statusu elə bir mərhələdir ki, ondan sonra danışıqlar aparmaq mümkün deyil, buna görə bir sıra məsələlər birtərəfli müəyyən edilir və danışıqları davam etdirmək üçün vaxt qazanılır. Beləcə əsas iştirakçılara imkan yaradılır ki, danışıqları davam etdirsinlər; ən vacibi isə odur ki, keçid statusu vədəndaş cəmiyyəti və adi insanlar səviyyəsində qarşılıqlı əlaqələrin qurulması üçün zəmin yarada bilər. Bu səbəbdən keçid statusu reseptlər və həllərin saxlandığı "qara qutu" deyil. Əksinə, bu, boş qutudur və həmin qutuya insanlar tərəfləri fərqli, daha açıq vəziyyətə gətirə bilən sosial və siyasi islahatlara dair öz fikirlərini atmağa həvəsləndirməlidirlər.

Bununla belə qeyd etmək lazımdır ki, keçid tədbirləri daimi hal almağa meyllidir. Əgər bu, yuxarıda "ünsiyyət çatışmazlığı" kimi müəyyən edilmiş boşuqları dolduraraq "normallaşdırıcı" münasibətlər rolunu oynayacaqsa, sonrakı mərhələdə sülh sazişinin əldə edilməsi üçün vacib resurslar təmin edə bilər. Lakin nə qədər ki, keçid statusu ümumi status məsələsinə aid qütbləşən ixtilaflardan yan keçə bilməyəcək, çətin ki, bu ideya Dağlıq Qarabağ münaqişəsinin həllinə köməklik edə bilsin.

# Dialoqun davam etdirilməsi üçün mümkün başlanğıc nöqtələri

### *A. "Status bir tədbir kimi" və "status bir proses kimi"*

Status müzakirələrində bütün tərəflər status haqqında qarşı tərəfi inkar edən və əvvəlcədən müəyyənləşdirilmiş nəticələr – "müstəqillik" və "muxtariyyət" – prizmasından danışmağa meyllidirlər. Bu debatların çərçivəsini genişləndirib ümumi idarəçilik, təhlükəsizlik və iqtisadi ehtiyaclar kimi mövqelərin mümkün yaxınlaşma nöqtələri üçün yer açmaq lazımdır. Bunu həmçinin elə səciyyələndirmək olar ki, status artıq müəyyən anda baş tutan bir tədbir kimi deyil, hüquq və vəzifələrə söykənən bir proses kimi başa düşülür.

### *B. İdarəçilik boşluğuna birgə baxışlar*

Keçmişdə qeyri-legitim nəticələrin köklü səbəbi olan idarəçilik boşluğu statusun tədbir kimi deyil, proses kimi müzakirə edilməsi üçün bir sıra çıxış nöqtələri təklif edən ümumi çərçivə rolunu oynaya bilər. İdarəçilik normaları haqqında müzakirələrin səmərəli olması üçün onlar müfəssəl olmalıdır. Bu, o deməkdir ki, "paralel introspektiv" yanaşmaya ehtiyac var, çünki idarəçilik haqqında müzakirələr heç vaxt sırf üfqi, münaqişə tərəfləri arasında gedən müzakirə deyil, bu, həmçinin mütləq hər tərəfin öz normalarına dair şaquli müzakirədir.

### *C. Dağlıq Qarabağda idarəçilik: etinasızlığı arxada qoyaraq*

Dağlıq Qarabağ qurumlarına beyənlxalq cəmiyyətin etinasızlıqla yanaşması və ya onları qınaq obyektinə çevirməsi bu qurumların münaqişənin həllində legitim surətdə iştirak etmək və qayıdan əhalini qəbul etmək imkanlarını kiçildir. Etinasızlıq siyasətindən qurtulmaq üçün beynəlxalq cəmiyyətə tövsiyə edilir ki, tanımadan müdaxilə kimi qaydalar vasitəsilə prinsipial müdaxiləni həyata keçirsin. İlk addım kimi Dağlıq Qarabağda yerli QHT-lər vasitəsilə Avropa dəyərləri və qurumları haqqında məlumat yaymaq üçün AB qeyri-rəsmi məlumat mərkəzini açmaq məsələsinə baxa bilər.

### *D. Qarabağlı azərbaycanlılar: səsin qazandılırması*

Azərbaycan Dağlıq Qarabağın idarəçilik strukturlarını tanımağa açıq şəkildə maraq göstərməli və bununla bağlı öz üzərinə öhdəlik götürməlidir. Hazırda bunu etməyin yollarından biri Qarabağın azərbaycanlı icmasının "idarəçilik kapitalına" sərmayənin yatırılmasıdır. Bu, həm geri qayıdanları beşinci kolonna qismində görən Qarabağ ermənilərinin qorxularını götürmək, həm də geri qayıdanların üzləşəcəyi çətin siyasi şəraitdə onlara lazım olacaq bacarıq və qabiliyyətlərini inkişaf etdirmək üçün lazımdır. Buna, məsələn, rəhbərliyin səsvermə yolu ilə seçilməsi, şəffaflığın təmin edilməsi, ədalət və legitimliyin qorunması ilə nail olmaq mümkündür. Eyni zamanda rəsmi Bakı aydın işarələr verməlidir ki, Qarabağ erməniləri və Qarabağ azərbaycanlıları arasında ünsiyyət formatına əlavə olaraq, Qarabağla Bakı arasında qeyri-rəsmi dialoq həmçinin mümkündür və bunun üçün son status və ya tanınma məsələsi şərt kimi qoyulmamalıdır.

### *E. "Kobud adaxlı" sindromunun aradan götürülməsi*

Münaqişəni hərbi yolla həll etmək təhdidləri və hərbi ritorika mühitində idarəçilik standartlarının məzmunlu müzakirəsini aparmaq mümkün deyil. QƏQ iştirakçıları Dağlıq Qarabağ sülh prosesindəki bir neçə əsas münasibətləri "kobud bəylə" özünə seçdiyi "gəlin" arasındakı münasibətlərə bənzətdilər: gəlinə pərəstişkarlıq etmək əvəzinə adaxlısı onu qorxudur, ya da onunla danışmaq istəmir. Münasibətlərdən asılı olaraq "bəy" və "gəlin" öz yerlərini dəyişə bilər; bir münasibətdə "kobud bəy" olan tərəf, digər münasibətdə "gəlindir". Lakin bütün bu münasibətlərin içində həm hərbi gücdən istifadə təhdidlərindən, həm də "güclü haqlıdır" prinsipindən (gizli olsa da belə) imtina edib sakit, birbaşa əlaqələrin yaradılması üçün yeni fürsətlərin açılmasına ehtiyac var.

Bu nəşr Qarabağ Əlaqə Qrupu (QƏQ) iclasının nəticələrinə əsaslanır. QƏQ Barışıq Resursları təşkilatının Dağlıq Qarabağ münaqişəsi haqqında strateji mülahizələr irəli sürmək məqsədilə 2010-ci ildə təsis etdiyi təşəbbüsdür. 2011-ci ilin sonunda Tiflisdə keçirilmiş 3 günlük iclasa Bakı, Yerevan və Xankəndinin (Stepanakert) ekspert və siyasi təhlil icmalarını, Qarabağdan olan azərbaycanlıları, münaqişədən əziyyət çəkmiş digər qrupları, habelə hüquq və siyasətin formalaşdırılması sahələrində ekspert dairələrini təmsil edən 17 iştirakçı qatıldı.

Bu nəşr Avropa Birliyinin səxavətli yardımı ilə işıq üzü görmüşdür. Burada irəli sürülən fikirlər qrup müzakirələrinə əsaslansa da, Barışıq Resursları təşkilatına aiddir və heç bir halda nə Avropa Birliyinin, nə də QƏQ təşəbbüsündə iştirak edən şəxslərin mövqeyini əks etdirmir.

Bütün şəkillərin müəllif hüququ Barışıq Resursları təşkilatı / Laurence Broers'ə məxsusdur.

CONCILIATION RESOURCES
working together for peace

173 Upper Street, London N1 1RG, United Kingdom
Tel: +44 (0) 20 7359 7728 | Fax: +44 (0) 20 7359 4081
Email: cr@c-r.org Web: www.c-r.org

Charity registered in England and Wales (1055436). © 2011.
Company limited by guarantee registered in England and Wales (03196482)